HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

*31 dekabr 2017-ci il*
*№021 (59)*

*yeni_yol@mail.ru* / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / *qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur*

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN GÖMRÜK QAYDALARINI SADƏLƏŞDİRMƏYİ PLANLAŞDIRIR



Azərbaycan Dövlət Gömrük Komitəsində bildiriblər ki, Azərbaycanın və Gürcüstanın gömrük orqanları məhsulların mənşəyinin müəyyənləşdirilməsinə, məhsulların və nəqliyyat vasitələrinin gömrük sərhədini mneəsiz və operativ keçməsinə dair tənzimləyici hüquqi sənədləri yeniləməyi planlaşdırırlar.

Bu razılaşma Azərbaycan və Gürcüstan gömrük orqanları nümayəndələrinin "Sınıq körpü" gömrük postunda baş tutan görüşü zamanı əldə olunub.

Azərbaycan Dövlət Gömrük Komitəsində sənədlərin yeniləşdirilməsinin iki ölkə arasında gömrük qaydalarının sadələşdirilməsinə yardım edəcəyi qeyd olunub.

## İNFRASTRUKTUR LAYİHƏLƏRƏ 15 MİLYARD LARİDƏN ÇOX VƏSAİT XƏRCLƏNƏCƏK



Gürcüstan baş nazirinin birinci müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Dmitri Kumsişvili parlamentdə keçirilən dinləmələrdə ölkənin tranzit potensialının inkişaf etdirilməsi və "İpək yolu"nun vacib komponentinə çevrilməsi üçün bir sıra infrastruktur layihələrin həyata keçiriləcəyini bəyan edib.

Nazir ölkədə yol infrastrukturunun bərpasına 8 milyard laridən çox vəsait xərclənəcəyini diqqətə çatdırıb. O, deyib: "Biz infrastruktur layihələrin həyata keçirilməsini sürətləndirmək və yüksək iqtisadi artımı təmin etməyi planlaşdırırıq. 2017-2020-ci illərdə 19 milyard laridən çox dəyəri olan infrastuktur layihələrin həyata keçirilməsini planlaşdırmışıq".

Kumsişvili deyib ki, 2017-2021-ci illərdə infrastruktur layihələrə ümumilikdə 15 milyard laridən çox vəsait xərclənəcək. O, həyata keçiriləcək layihələrə Şərb-Qərb magistral yolunun tikintisinin, Şimal-Cənub dəhlizinin tikinti və bərpasının, turizm, energetika və digər infrastruktur obyektlərin tikintisinin daxil olduğunu bildirib.

## SOCAR KULEVİ TERMİNALINDAN 2200 TANKER YÜK YOLA SALIB




Kulevi neft terminalından verilən məlumata görə, SOCAR şirkəti dekabrın 15-də 2200 tanker neft və neft məhsulları göndərib.

Kulevi neft terminalı və eyniadlı liman 2008-ci il mayın 16-da işə düşüb və ilk tankerin qəbul olunması üçün bir aydan az vaxt tələb olunub.

Terminalın məlumatında bildirilir: "10 il ərzində Kulevi limanı özünün ümumi infrastrukturunu istənilən şirkətin tələblərinə cavab verəcək səviyyəyədək yüksəldib. Limanın gücü, habelə tankerlərin qəbulu, yüklənməsi və yola salınması payı da artıb. Biz limanın sabit inkişafı üçün əlavə qüvvə sərf etmək niyyətindəyik. Düşünürük ki, bizim tərrəqimiz gələcəkdə də davam edəcək".

2016-cı ildə Kulevi terminalından 152 tanker yola salınıb. Bu 2015-ci ilin göstəricisindən (207 tanker) 26,6% azdır.

Xatırladaq ki, terminalın gücü ildə 10 milyon ton yük salmaq qabiliyyətinə malikdir. Terminalın ümumi tutumu 380 min kubmetr təşkil edir.

## II İLYA MƏKTƏBLƏRDƏ DİN TARİXİNİN VƏ RUHANİYYƏT MƏSƏLƏLƏRİNİN TƏDRİS OLUNMASINI TƏKLİF EDİB



Bütün Gürücüstanın Katalikos-Patriarxı II İlya özünün dekabrın 10-dakı bazar günü moizəsində Tbilisidəki 51 saylı məktəbin yaxınlığında baş vermiş faciəyə münsibət bildirərkən qeyd edib ki, məktəblərdə din tarixi, ruhaniyyət məsələləri tədris olunmalı, belə hadisələr Gürcüstanda təkrar olunmamalıdır. II İlya baş verənləri çox ağır hadisə kimi dəyərləndirib.

O, deyib: "Yetkinlik yaşına çatmamış uşaqlar bir-birlərini öldürüb, iki həlak olan var. Bu, bir daha bizim uşaqların tərbiyəsinə xüsusi diqqət yetirməli olduğumuzu diqtə edir. Onların məktəbdə bilik alması kifayət deyil, biz tərbiyəyə də, xüsusilə dini tərbiyəyə də diqqət ayırmalıyıq. Yəqin ki, bizim hakimiyyət bu barədə düşünməlidir, məktəblərdə din tarixi, ruhaniyyət məsələləri tədris olunmalı, Gürcüstanda belə hallar təkrarlanmamalıdır".

## CARİ İLİN 11 AYI ƏRZİNDƏ GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 12,9 FAİZ ARTIB

2017-ci ilin yanvar-noyabr aylarında Gürcüstanın xarici ticarət dövriyyəsi 9 milyard 563,9 milyon dollar təşkil edib.

Gürcüstanın Milli Statistika İdarəsinin məlumatına görə, bu, ötən ilin müvafiqi dövrü ilə müqayisədə 12,9% çoxdur.

Cari ilin 11 ayı ərzində ixrac 27% artaraq 2 milyard 439, 8 milyon dollar, idxal isə 8,8% artaraq 7 milyard 124,1 milyon dollar təşkil edib.

Bəhs olunan dövrdə ticarət dövriyyəsinin kəsiri 4 milyard 684,3 milyon dollar olub.

## AZƏRBAYCAN GÜRCÜSTANA SƏRMAYƏ YATIRAN ÖLKƏLƏR ARASINDA LİDERDİR

Azərbaycan cari ilin 9 ayında Gürcüstan iqtisadiyyatına 378,3 milyon dollar sərmayə qoyub.

Bu göstərici ilə Azərbaycanın Gürcüstana sərmayə qoyan xarici ölkələr sırasında lider olduğu bildirilir.

Gürcüstan Milli Statistika İdarəsinin məlumatında Gürcüstana yatırılan Azərbaycan sərmyəsinin həcminin Gürcüstan iqtisadiyyatına qoyulmuş xarici sərmayənin ümumi həcminin 25,9 faizini təşkil etdiyi qeyd olunur. Məlumatda bildirilir ki, təkcə cari ilin üçüncü rübündə Azərbaycan Gürcüstana 154,1 milyon dollar investisiya yatırıb.

Məlumatda cari ilin doqquz ayı ərzində Gürcüstanın iqtisadiyyatına ümumilikdə 1 milyard 346,5 milyon dollar xarici sərmyə qoyulduğu qeyd edilib.

Gürcüstana ən çox investisiya yatırmış ölkələr sırasında ikinci yerdə 259,2 milyon dollarla Türkiyə, üçüncü yerdə isə 175 milyon dollarla Böyük Britaniya dayanır.


2 YENİ İLİN BƏZİ SÜRPRİZLƏRİ

3 AXİRƏTƏ AÇILAN SABAH

4 ABŞ-IN QÜDS PLANININ GİZLİNLƏRİ

5 DİNARIN DÖRDDƏ BİRİ *(irrasional)*

6 YENƏ DƏ TİTRƏYİR ƏLİMDƏ QƏLƏM... *(Camal Mustafayev haqqında xatirələrim)*

7 QEYRİ-MÜƏYYƏNLİK FONUNDA BAŞ VERƏNLƏR



## YENİ İLİN BƏZİ SÜRPRİZLƏRİ

Afiq MUXTAROĞLU
*amuxtaroglu@mail.ru*

**Deyirəm yeni ilə də bir şey qalmadı. Elə gözünü açıb-yummağa bəndsən, bir də baxacaqsan ki, yeni ildi. Sayılı günlər, bəlkə də sayılı saatlar qalıb. İndidən bir partapart düşüb, bir vur çatlasın başlayıb ki, gəl görəsən. Adamlar bir əl-ayaq da satın alıb, yeni il hazırlığındadır, yeni il süfrəsinin tədarükündədirlər. Bəs nə bilmişdin? Ağzında yeni il gəlir deyib, ona da hazırlıq görməyəsən və dediyinlə əməlin fərqlənsə, tutuşmasa necə olacaq? Arvad-uşağın qaş-qabağını yığa biləcəksənmi? Hələ qonum-qonşunun, qohum-əqrabanın qınağını da deyilənlərin üzərinə əlavə etdikdə sənin biabır olman üçün, el içində motalpapaq olman üçün kifayət qədər tutarlı dəlil-sübut toplanacaq və sən yeni ilin ilk gününü qanın it qanına dönmüş bir durumda, başını yerdən qaldıra bilməyəcək bir halda yaşamaq məcburiyyətində qalacaqsan. Bunun yüzdə yüz belə olacağına adım kimi əminəm.**

Bunu ovcumun içi kimi bildiyimdən sənə bir dost-qardaş, lap elə bir eloğlu məsləhəti edirəm ki, nəbadə belə bir addım atasan. Nədən ki, uzun bir ili başı qaxınclı, başı tıqqıltılı qalacaqsan. Bunu haradan bilirsən kimi bir sualıyın cavabını da çoxdan sinədəftər eləmişəm və əzbərimdən deyirəm ki, illərin təcrübəsindən. Nə qədər çəm-xəm etsən də sən deyən olmayacaq, ev əhli səni muma döndərəcək, başını keçəl edəcək və sonunda sən yenilməyiyin acısını yaşamalı olacaqsan. Kobud da səslənsə, pisliyin özünə qalacaq və ev əhli heç bir konsprisiya-filan gözləmədən evin xanımının ümumi komandanlığı altında, nümayişkaranə surətdə sənin könüllü olaraq etmək istəmədiklərini sənə acıq verə-verə geninə-boluna edəcək. Sən də qalacaqsan yana-yana. Məsələnin buraya qədər olan hissəsini çözülmüş sayaq.

Və mən bilirəm ki, bundan sonra eşidəcəklərin səni bir daha cin atına mindirib, başıyın tüklərini kirpi tikanına döndərəcək. O üzdən də mən yeni il hazırlığına aid olub-olmadığını özüm də düz əməlli kəsdirə bilmədiyimdən, söhbətimin bu bölümünə bu qədər gec başlamağa qərar verdim. Bir də düşündüm ki, sən də enində-sonunda bir insan oğlusan, söhbətin bu bölümünü eşidəndə halın xarab olar, allah eləməsin başına bir iş gələr, azarlayarsan-eləyərsən, mənim yaxam əldə qalar, adım bədnam olar və bir an əvvəl sidq-ürəkdən əleyhinə hərəkətdə bulunan xanımın sənin bu hala düşməndə məni suçlu tutar, üstəgəl də oturduğum yerdə qarğışdan payımı verib, söyləyər ki, mərdüməzarı axtarmaqla deyil ha? Orasını da deyim ki, həmin mərdüməzar bu məqamda mən oluram, biləsən.

Hə, onu deyirdim axı, sözümün canı başqa idi. Bizim oğul-uşaq da bədxərclikdə özümüzə oxşayır. Həm də binayi-qədimdən belədir ki, yumurtadan dünən çıxan, ağzının qatığını silə bilməyən colma-cocuq bu gün sənə "cik-cik" öyrətməyə başlayır və sən o an qaşığın çömçədən böyük olduğunu anlayıb dəli-dəngəsər olursan. Bizdən törəyənlər öz hərəkətləri ilə nəinki bizi təkrarlayır, hətta bir az da qabağa gedib, bizim baxış bucağımızın görüntüsündə əndazələrini aşırlar. Bəli, bu, bizim nöqteyi-nəzərimizə görə cavan-cümrünün əndazəni aşması kimi görünsə də, əslində onlar etdiklərinin məhz bu cür olmasına uşaq səmimiliyi ilə inanırlar. Nədən ki, dünya gör-götür dünyasıdır və uşqlarımız bizim etdiklərimizi təkrarlamaqla doğru yolda olduqlarını güman edirlər. Bu yerdə deyirlər də, alma budağından gen düşməz.

Oğul-uşağın şənlənməsinin təbii bir zad olmasını hamımız bilirik. İndi deyək ki, sənin uşaqların məktəblidirlər və yeni il şənlyinə qatılmaq istəyirlər və sən də bunu eşidib xeyli bəxtiyarlıq hissi keçirirsən. Düşünürsən ki, şükür, uşaqlar böyüyür, cəmiyyət içərisinə çıxırlar. Sənin bu bəxtiyarlığını uşaqlardan birinin pencək, digərinin bir bir başqa şey istəməyi paramparça edir. Və bu azmış kimi, məktəbdə başlayan şənlyin geniş tərkibdə, belə nağaralı-zurnalı, nə bilim belə qıylı-qışqırıqlı, videolu-filanlı, yeməkli-içməkli restoranda davam edəcəyini eşitmək inanmıram ki, sənin xoşbəxt anlarıyın ömrünü uzatsın. Orasını da deyim ki, sənin hələ tifil saydığın uşağın qızdırsa, onun saçına-başına, makiyajına da "n" qədər xərc tələb oluncaq. Bunu ona görə deyirəm ki, bəri başdan işini biləsən və hər an şişən yeni il büdcəndə nəzərə alasan. Bir onu deyim ki, bunları ürəyinə salma. Hamı olmasa da, əksəriyyət sən günlüdür, hamı bir əlli, bir ətəklidir. Qoy uşaqlar doyunca əylənsinlər. Nə olsun sən pulu kimdənsə borc götürmüsən və ya bankların birindən kredit çəkmisən. Pulsuz bir işimizin aşmadığını bilsək də, ona əl çirki deyən də biz deyilikmi?

**Hər yaşanan günü Allahın lütfü bilib, yazılanları yaşamağa dəyər. Mən sənin Yeni İl bayramını təbrik etdimmi? Deyəsən, yox. Unutdum desəm, yalan olar. Qəsdən sonraya saxladım deməyim də, bir başqa cür saxtakarlıq sayılar. Düzünü deyimmi? Mən istər köhnə ilin yaşanmış günləri olsun, istərsə də yeni ilin qismət olsa, yaşayacağımız günləri olsun – bütün bunların bizə bir fürsət olaraq verildiyi gümanındayam. O üzdən də "Vallah, yaşamağa dəyər!" – deməkdən özümü saxlaya bilmirəm. Hər yaşadığın gün mübarək olsun!**

## PROFESSOR CAMAL MUSTAFAYEV VƏFAT EDİB



Dekabrın 4-də əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Camal Mustafayev vəfat edib. Camal Vəli oğlu Mustafayev, 1928-ci ildə Qarayazının (indiki Qardabani) Kosalı kəndində anadan olmuşdur. O, orta təhsilini 1935-1944-cü illərdə doğma Kosalı kəndindəki orta məktəbdə almışdır. Sonra Tbilisidə ikiillik Müəllimlər İnstitutunda oxumuşur.

Camal Mustafayev Müəllimlər İnstitutunda təhsilini başa vurduqdan sonra 1946-1948-ci illərdə Kosalı kəndində müəllim işləyib.

1948-ci ildə Azərbaycan Dövlət Universitetinin fəlsəfə şöbəsinə daxil olub. O, 1949-cu ildə təhsilini Moskva Dövlət Universitetində davam etdirib və oranı 1952-ci ildə bitirib. Sonra ata yurduna qayıdaraq, iki il məktəb direktoru kimi fəaliyyət göstərib.

1954-cü ildə SSRİ EA Fəlsəfə İnstitutunun əyani aspiranturasına qəbul olunub. Aspirantura illərində "Nizaminin fəlsəfi və etik görüşləri" mövzusunda elmi araşdırmalar aparıb. O, elə bu mövzuda da namizədlik dissertasiyası müdafiə edərək, fəlsəfə elmlər namizədi alimlik dərəcəsi almışdır.

1957-1968-ci illərdə Camal Mustafayev Azərbaycan EA Fəlsəfə və Hüquq İnstitutunda kiçik elmi işçi, elmi işçi və baş elmi işçi vəzifələrində çalışmışdır.

1968-ci ildə o, Azərbaycan Dövlət Universitetinin müdafiə şurasında "Nizaminin ideyalar aləmi və müasirlik" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru alimlik dərəcəsinə layiq görülmüşdür.

Camal Mustafayev 1968-1976-cı illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunda fəlsəfə kafedrasının müdiri işləmişdir.

1976-cı ildən 1999-cu ilədək Azərbaycan Dövlət Universitetinin (sonralar Bakı Dövlət Universiteti) professoru olmuşdur. 1985-1991-ci illərdə o, bu universitetdə etika-estetika kafedrasının müdiri vəzifəsində çalışmışdır.

Professor Camal Mustafayev 1999-cu ildən ömrünün sonunadək Xəzər Universiteti Tərcümə Araşdırmalar Mərkəzinin direktoru vəzifəsində çalışıb.

Allah rəhmət eləsin!

## FATMA CEREN YAZGAN TÜRKİYƏNİN GÜRCÜSTANDAKI YENİ SƏFİRİDİR



Türkiyə Cümhuriyətinin Gürcüstandakı yeni fövqaladə və səlahiyyətli səfiri Fatma Ceren Yazgan, 15 dekabr tarixində Gürcistan prezidenti cənab Georgi Marqvelaşvili tərəfindan qəbul edilərək, öz etimadnaməsini ona təqdim edib.

Qeyd edək ki, Türkiyə Cümhuriyətinin Gürcüstandakı fövqaladə və səlahiyyətli səfiri Fatma Ceren Yazgan Gürcüstanın baş naziri Georgi Kvirikaşvili tərəfindən də qabul edilmişdir.

Xatırladaq ki, Fatma Ceren Yazqan bu vəzifədə noyabrın 16-da səfirlik müddəti başa çatan Zəki Ləvənt Gümrükçünü əvəz edib. Səfirlik fəaliyyətinə başlayana qədər F. C. Yazgan Türkiyə Xarici İşlər Nazirliyi Təhlükəsizlik və Analtik Departamenti rəhbərinin köməkçisi vəzifəsində çalışıb.

F. C. Yazgan üç il müddətində Gürcüstanda səfir vəzifəsində çalışacaq.

## HÖKUMƏT ETNİK AZLIQLARIN NÜMAYƏNDƏLƏRİ ÜÇÜN TƏCRÜBƏ PROQRAMINA BAŞLAYIR

Barışıq və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Sixelaşvili hökumətin etnik azlıqların "1 + 4" proqramında iştirak edən nümayəndələri üçün təcrübə proqramına başladığını bəyan edib.

Onun sözlərinə görə, proqramda iştirak edən buraxılış kursunun tələbələri və ya məzunlar dövlət müəssisələrində təcrübə keçəcəklər.

Ketevan Sxelaşvili vurğulayıb: "Dövlətimizin əsas vəzifə və prioritetlərindən biri mülki inteqrasiyadır. Vətəndaşların bərabərhüquqlu olduğu cəmiyyətdə hər bir vətəndaşın imkanı gerçəkləşdirilir. Etnik azlıqların ölkə həyatının müxtəlif sferlarına qoşulmasına xüsusi diqqət ayırmaq dövlətin prioritetlərindəndir. Proqram məhz onlar üçün tərtib olunub. "1 + 4" proqramı mövcuddur, qeyri-gürcü məktəblərini bitirən etnik azlıqların nümayəndələri bir il ərzində gürcü dilini öyrənərək, sonra dövlət dilində təhsillərini davam etdirirlər. Məhz "1 + 4" proqramının məzunları və ya buraxılış kurslarının tələbələri üçün biz dövlət müəssisələrində təcrübə imkanları yaradırıq.

Onun sözlərinə görə, pilot proqram ilin əvvəlindən həyata keçirilir, artıq 65 gənc 20 dövlət müəssisəsində təcrübə keçib və nəticələr olduqca müsbət olub. Nazir deyib : "Biz buna hüquqi forma verməyi, məsuliyyəti öz üzərimizə götürməyi qərara aldıq və bunun vətəndaş inteqrasiyası üçün mühüm addım olduğunu düşünürük".

# AXİRƏTƏ AÇILAN SABAH

*Allah-Təala Qurani-Kərimdə belə buyurur: "(Qiyaməti inkar edənlər) belə deyirlər: "Dünya həyatından başqa heç bir həyat yoxdur; ölürük və dirilirik, o biri ölür, digəri anadan olur); bizi öldürən ancaq dəhrdir (ömür müddətidir; yaşa dolub qocalmamızdır). Bu barədə belə düşünənlərin heç bir biliyi yoxdur. Onlar ancaq zənnə qapılırlar!" (əl-Casiyə, 24)*

**Heyrətamiz yaranış həqiqətinin zirvəsi hesab edilən insan daxil olduğu məsuliyyət dairəsinin genişliyi haqda heç olmasa müəyyən qədər məlumata malik olarsa, yəqin ki, yaşadığı dünya həyatını əhəmiyyətli dərəcədə qiymətləndirmədə bu qədər əziyyət çəkməz. Təəssüf ki, zahirən hər şeyin özbaşına tərəqqi etməsi fikrini rəhbər tutan bəşər övladı ilahi səltənəti hər anda, hər addımda hiss edəcək və dəyərləndirə biləcək bir biçimdə xəlq edilmişdir. Hakimiyyətini bərqərar edən insan övladının malik olduğu hissiyyat və düşüncə orqanları ilə nəzərini sərhədsiz səmaların fəthinə çevirməsi, onun təbiətinə xas olan bir özəllikdir. Lakin bütün bu nailiyyətlərinə baxmayaraq, yaşadığı və çalışdığı aləmdə ilahi nizamın heyranlıqla cərəyan edən ahənginə qarşı laqeyd qalması həqiqətən də təəccüb doğurur. Bu dəyərləndirmənin təhlükəli məntiqi bizi bir daha xəbərdar edir: Yaşadığımız məkanda dünya ilə əbədi axirət həyatı arasında nəinki qırılmaz əlaqələr, əksinə miqyasını ifadə etməkdə belə çətinlik çəkdiyimizin böyük bir uçurum mövcuddur.**

Obyektiv reallıq dünya həyatında ikən bizdən mənəvi və maddi uçurumun dəf edilməsinə yönələn təxirəsalınmaz tədbirlərin görülməsini tələb edir. Əks təqdirdə insan aqibətinin necə də dəhşətli bir məcraya yönələcəyini Qurani-Kərim belə xəbər verir: "Kafir olanlara isə (belə deyiləcəkdir): "Məgər ayələrim (dünyada) sizə oxunmurdumu?! Amma siz (iman gətirməyə) təkəbbür göstərdiniz və günahkar bir tayfa oldunuz!"

(Sizə:) Allahın (ölüləri diriləcəyi barədəki) vədi haqdır və o saata (qiyamətin qopacağına) heç bir şəkk-şübhə yoxdur!"-deyildiyi zaman: "O saat nədir, bilmirik! Onun ancaq bir zənn (güman) olduğu qənaətindəyik. Biz (qiyamətin qopacağına) əmin deyilik!" -deyə cavab verdiniz. (O gün dünyada etdikləri) pis əməllərinin cəzası onların gözünə görünəcək və istehza etdikləri (əzab) onları saracaqdır!" (əl-Casiyə, 31-33).

İlahi əmrlərə qarşı laqeyd və səhlənkarcasına yanaşma tərzi yalnız və yalnız ölüm anına kimi öz fani sultanlığını sürdürəcəkdir. Ölümün gəlməsi və qəflət dövrünün tamamlanması ilə tamamilə fərqli bir mənzərənin şahidi olanların fəlakətli aqibətini Qurani-Kərim belə bildirir:



"Ya Peyğəmbər! Sən onları (müşrikləri) bir qorxduqları zaman görəydin! Artıq qaçıb can qurtarmağa heç bir imkan yox, özləri də (Cəhənnəmə) yaxın bir yerdə yaxalanmışlar.

Onlar: "Ona (Qurana və ya Məhəmmədə (s.ə.s) inandıq!"- deyirlər. Amma (axirət kimi) uzaq bir yerdən əlləri (imana, tövbəyə) necə çata bilər?!" (Səbə,51-52)

Axirət aləminin belə ifadə edilərkən yaşanılan dözülməz bir dəhşəti qarşısında titrəyən kəslərin əbədi əzabdan qurtulmaq üçün etdikləri səylərinin nə qədər faydasız olduğunu müqəddəs Kitabımız tam təfsilatı ilə xəbər verir: "Yer üzündə nə (sərvət) varsa, hamısı, üstəlik bir o qədər də kafirlərin olmuş olsaydı, mütləq onu qiyamət gününün pis əzabından qurtarmaq üçün fidyə verərdilər (lakin onlardan fidyə qəbul olunmaz). Və (o zaman ) Allahdan onlara güman etmədikləri (gözləmədikləri əzab) görünəcəkdir." (əz-Zumər,47)

Artıq hər şeydən əlləri üzülənlərin əbədi axirət həyatındakı fəryadları hələ də düşünmək üçün zamanı olan dünya əhlinə əvəzsiz bir örnəkdir: "Onlar orada fəryad edib deyəcəklər: "Ey rəbbimiz! Bizi buradan çıxart ki, saleh əməllər edək. O əməlləri yox ki, (dünyada) edirdik!" (onlara belə deyəcəyik:) "Məgər orada sizə düşünəcək kimsənin düşünə biləcəyi qədər ömür verməadikmi?! Hələ sizə (Allahın əzabı ilə) qorxudan peyğəmbər də gəlmişdi. Dadın (cəhənnəm əzabını)! Zalımların imdadına çatan olmaz" (Fatir,37)

**Allah-Təalanın Quranı-Kərimdə: "Allah (əcəli çatan kimsələrin) canlarını (ruhlarını) onlar öldüyü zaman, ölməyənlərin (hələ əcəli çatmayanların) canlarını isə yuxuda alar. Ölümünə hökm olunmuş kimsələrin canlarını (ruhlar aləmində) saxlayar. Digər (ölümünə hökm olunmamış) kimsələrin canlarını isə müəyyəm bir müddətədək qaytarar. Həqiqətən, bunda düşünən bir qövm üçün ibrətlər vardır!" (əz-Zumər, 42) buyurduğu ayeyi-kərimənin məna dərinliyində hər bir insanı qəflətin pəncəsindən xilas edəcək qüvvətli bir məntiq mövcuddur. Gördüyümüz kimi ilahi mərhəmətin müqayisəsiz bir təcəllisi sayəsində hər səhər yeni günə başlayarkən bizə ərməğan edilən yeni can və yeni nəfəslə buraxdığımız bütün səhv və günahlarımızın bağışlanmasına və ilahi əmrlərə sarılaraq əbədi səadətimizi təmin edəcək əməllərə yönəlmə imkanı əldə edirik. Atılacaq hər bir addımı doğru, dürüst və təmkinlə qiymətləndirərək əməli müstəvidə əks etdirmək üçün tələsmək lazımdır. Çünki açılacaq növbəti sabahlardan biri artıq dünyaya deyil, mütləq axirətə açılacaqdır: "Bu (Quran) aləmllərə (həm insanlara, həm də cinlərə) ancaq bir öyüd-nəsihətdir! Siz onun verdiyi xəbəri (Quranda deyilənlərin doğru olduğunu) bir müddətdə (öləndən, yaxud qiyamət qopandan) Sonra mütləq biləcəksiniz! (Sad, 87-88)**

Hacı BƏKİROĞLU

## PATRUL POLİSİNİN ƏMƏKDAŞLARI ELEKTROMOBİLLƏRDƏ FƏALİYYƏT GÖSTƏRƏCƏKLƏR



Gürcüstan patrul polisinin əməkdaşlarına 100 ədəd elektromobil və hibrid avtomobil verilib. Bu barədə parlamentin bir neçə komitəsinin birgə iclasında Gürcüstan baş nazirinin müavini, daxili işlər naziri Qiorgi Qaxariya məlumat verib.

O, deyib: "Yaponiyanın qrantı sayəsində bir neçə gün qabaq 100 elektromobil və hibrid avtomobil gətirilib. Onlar hökumət üzvləri üçün nəzərdə tutulsa da, bizim xahişimizlə patrul polisinə veriləcək".

## GÜRCÜSTANA GƏLƏN ƏCNƏBİLƏR AVTOMOBİLLƏRİNİ SIĞORTA ETDİRMƏLİ OLACAQLAR

Gürcüstan ərazisinə avtomobillə daxil olan əcnəbilər 2018-ci ildən etibarən idarə etdikləri nəqliyyat vasitələri üçün sığorta ödəyəcəklər.

Sığorta müqaviləsi olmadan əcnəbilər avtomobillə Gürcüstan ərazisinə keçə bilməyəcəklər.

Gürcüstana gələcək xarici ölkə vətəndaşına sərhəd keçid məntəqələrində idarə etdiyi minik avtomobili üçün 1 illik, 30 və 15 günlük sığorta paketləri təqdim olunacaq.

Avtomobil sahibləri 15 günlük sığorta üçün 30, bir aylıq paket üçün 50, bir illik sığorta paket üçünsə 292 lari ödəyəcəklər. Məcburi tarif paketində avtobus və motosikletin sığortası da müəyyənləşdirilib.

Avtomobillərin sığorta edilməsi təşəbbüsü Dövlət Sığorta Nəzarəti Xidməti tərəfindən irəli sürülüb.

Sığortasız hərəkət edən minik avtomobili sahibi 100 avro, avtobus sürücüsü 200 avro cərimə olunacaq.

## SÜRÜCÜLÜK VƏSİQƏSİ ALMAQ İSTƏYƏNLƏR TƏCRÜBİ İMTAHANI ŞƏHƏRLƏRDƏ VERƏCƏKLƏR

Gürcüstan DİN-nin Xidmət Agentliyinin məlumatında sürücülük vəsiqəsi almaq istəyənlərin təcrübi imtahanı şəhərlərdə verəcəkləri bildirilir.



Sürücülük hüququ imtahanlarının verilməsi qaydaları 2018-ci ilin birinci yarısında dəyişəcək.

Məlumtda yeniliyin Avropa Birliyi ilə Gürcüstan arasında assosiasiya sazişinin tələblərinə uyğun olaraq tətbiq edildiyi vurğulanır.

Məlumtda deyilir: "Gürcüstan DİN-nin Xidmət Agentliyi şəhər şəraitində təcrübi imtahanın keçirilməsi layihəsi üzərində fəal işləyir. Bu istiqamətdə müxtəlif qanun dəyişiklikləri nəzərdə tutulur. Bundan əlavə, bir neçə regionda artıq praktik imtahanlar üçün lazım olan yerlərin və marşrutların müəyyənləşdirilməsilə məşğul olan xüsusi işçi qrupları yaradılıb".

Xatırladaq ki, sürücülük vəsiqəsi almaq üçün 16 yaşı tamam olmuş istənilən şəxs nəzəri və təcrübi imtahan verməlidir. İmtahanın hər iki hissəsi yaşayış yeri üzrə şəhərlərdə və ya rayon mərkəzlərində verilir. Nəzəri hissə 30 sualdan ibarət testlərdən ibarətdir. İmtahanın təcrübi hissəsində isə vəsiqə almağı arzulayanlar Gürcüstan DİN-nin Xidmət Agentliyinin avtodromunda avtomobillə bir neçə manevr yerinə yetirməlidirlər.



# ABŞ-IN QÜDS PLANININ GİZLİNLƏRİ

Sahib MUSTAFA
sahib1975.sm@gmail.com

**Yola saldığımız ilin ən səs-küylü hadisələrindən biri də yəqin ki, ABŞ-ın Qüdsü İsrail dövlətinin paytaxtı kimi qəbul etməsi olacaqdır. 6 dekabrda prezident Tramp Qüds şəhərini İsrailin paytaxtı kimi tanınması barəsində sərəncam imzalamış və öz ölkəsinin diplomatik korpusunu Tel-Əvivdən Qüdsə köçürəcəyini bildirmişdir. Bu azmış kimi, ABŞ məsələ ilə bağlı Vaşinqtondan "dəsdir" götürməyən müttəfiqlərini "Ağ ev"in "qara siyahı"sına düşəcəyi və bütün maliyə yardımlarından məhrum olacağı barədə də hədələmişdir. Bəs Trampı belə bir addım atmağa vadar edən nədir, qərəzli qərar ərəb-İsrail sülh prossesinə nə kimi təsir edəcək, qabaqcıl Avropa ölkələri və İslam dünyası Trampa qarşı hansı adekvat addımlar atacaqdır?**

İlk növbədə, ABŞ səfirliyinin Tel-Əvivdən Qüds köçürülməsi Diplomatik əlaqələr haqqında 1961-ci il "Vyana konveniyası" müddəalarının kobud şəkildə pozulması deməkdir. Əgər, söhbətin mövzusu ABŞ-dırsa, deməli, qeyd olunan institutların şərt və tələbləri bu ölkə üçün keçərsizdir? Başqa sözlə, ABŞ öz dövlət maraqlarını həyata keçirmək üçün bütün beynəlxalq hüquq normaları və bəyannamələri heçə sayacaq və dünya birliyi də mənzərəni sakitcə seyr edəcəkdir.

Trampın Qüdslə bağlı qərarını bir neçə müstəvidə analiz etmək olar. İlk olaraq, vurğulamaq lazımdır ki, İsrail ABŞ-ın Yaxın Şərq və İslam coğrafiyası anklavındakı ən mühüm strateji tərəfdaşıdır. Vaşinqton İsrail vasitəsi ilə regionu daim nəzarətində saxlayır, lazımı anda da taktiki siyasi gedişlər edir. İkincisi, Tramp seçkiqabağı verdiyi vədləri yerinə yetirməklə amerikan cəmiyyətində reytinqini yüksəltmək, əleyhinə olan etirazları azaltmaq və "amerkansayağı" şoular nümayiş etdirməklə daxili auditoriyanın rəğbətini qazanmaq məqsədi daşıyır. Bundan öncə Meksika ilə sərhəddə divar inşasına start verilməsi, müsəlmanların ABŞ-a girişinin əngəllənməsi, özəl sektor sərmayələrinin Cənubi Amerika ölkələrindən ABŞ-a geri qaytarılması nümunələrini göstərmək olar.

Suriyada İŞİD-lə mübarizənin başa çatmaq ərəfəsində olduğunu nəzərə alsaq, bölgədə qalıcı olmasını təmin etmək üçün "Ağ Ev" yeni bəhanələr axtarışındadır. Bu arada, Trampın Qüdsü İsrailin paytaxtı kimi tanımasından sonra, baş nazir Netenyahunun avropalı müttəfiqlərindən dəstək almaq üçün "Köhnə qitə"yə səfərini tam fiasko adlandırmaq olar. Belə ki, Avropa İttifaqı xarici işlər və təhlükəsizlik məsələləri üzrə Ali nümayəndəsi Feredika Mogerini Fələstin-İsrail münaqişəsi həll edilməyənədək Qüds şəhərinin beynəlxalq statusunun saxlanmasının tərəfdarı olduğunu bildirdi. Avropanın mövqeyi Netanyahunu o qədər pərt etdi ki, hətta o, Avropa Birliyini ikili standartla yanaşmada suçlayaraq, hava şəratini bəhanə gətirərək rəsmi səfərini bir gün əvvəl başa vurdu. Ədalət naminə Avropanın heç olmasa nədəsə nəyəsə "yarama"sını vurğulamaq lazımdır. Qüdslə bağlı Avropanın mövqeyi çox güman ki, ehtimal oluna biləcək terror olaylarından sığortalanmaqdır.

Trampın qərarına ən böyük təpkini Türkiyə perezidenti Ərdoğan verdi. "İslam Əməkdaşlıq Təşkilatı"nın növbədənkənar İstanbul zirvəsində Ərdoğan Qüds qərarını verməklə Trampı müsəlmanların "qırmızı xətt"ini keçməkdə suçladı. "Ağ Ev"ə tutarlı cavab olaraq islam dünyasını Qüdsü Fələstinin paytaxtı kimi tanımağa dəvət edən Türkiyə prezidenti həm özünün, həm də ölkəsinin cəsarətini bir daha nümayiş etdirdi. Məhz, Türkiyənin təşəbbüsü ilə BMT Baş Assambleyasının Qüds məsələsi ilə bağlı növbədənkənar sessiyası Trampı və ABŞ-ı hegomoniyasının sərhədlərini anlamağa dəvət etdi. İclasdan öncə Vaşinqtonun hədə və təhdidlərinə baxmayaraq, başda ABŞ-ın strateji müttəfiqləri olmaqla 128 ölkə Trampın qərarının əleyhinə səs verdi. Yalnız, Mikroneziya, Nauru kimi varlığı-yoxluğu bəlli olmayan 9 dövlət Vaşinqtonun yanında qərar tutdu.

**Məlumdur ki, İsrailin paytaxtının Qüdsə köçürülməsi planı İsrail-Fələstin sülh danışıqları prosesinə ölümcül yara vuracaqdır. "Ərəb saçına" dönmüş İsrail-Fələstin münaqişəsinin həlli yəqin ki, bir neçə onillik müddətə təxirə düşəcək.**

# ƏRDOĞAN BEYNƏLXALQ BİRLİYİ YERUSƏLİMİ FƏLƏSTİNİN PAYTAXTI KİMİ TANIMAĞA ÇAĞIRDI



Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan beynəlxalq birliyi Yerusəlimi Fələstinin paytaxtı kimi tanımağa çağırıb.

Onun sözlərinə görə, ABŞ bu şəhəri İsrailin paytaxtı kimi tanımaqla beynəlxalq normaları tapdalayıb.

İslam Əməkdaşlıq Təşkiltının İstanbulda keçirilən fövqaladə sammitində çıxış edən Türkiyə prezidenti deyib: "Qüdsdə, bu qədim şəhərin küçələrində dolanan hər kəs oranın işğal altında olduğunu anlayacaq. Şəhər işğal altındadır. İsrail terrorçu dövlətdir. Terrorçu hərbiçilər uşaqları tutub həbsxanaya atırlar".

O, Yerusəlimi işğal altındakı Fələstinin paytaxtı kimi tanımağa çağırıb və Donald Trampın qərarını qınayan ölkələrə təşəkkür edib.

Türkiyə lideri vurğulayıb: "Mən inanıram ki, BMT-nin 196 üzvü öz doğru mövqeyini göstərəcək. ABŞ güclü nüvə dövləti ola bilər. Lakin bütün dünya ona məxsus deyil".

Xatırladaq ki, dekabrın 6-da Tramp Yerusəlimi İsrailin paytaxtı kimi tanıdığını bəyan etmiş və ABŞ səfirliyinin Təl-Əvivdən Qüdsə köçürülməsi haaqqında sənəd imzlamışdı. ABŞ-ın qərarını İsrail bəyənsə də, bu qərar dünya dövlətləri çoxu, ilk növbədə də Yaxın Şərq ölkələri tərəfindən mənfi qarşılanmışdı.

# YENS STOLTENBERQ 2020-Cİ İLƏDƏK NATO-NUN BAŞÇISI VƏZİFƏSİNDƏ QALACAQ

NATO Yens Stoltenberqin baş katib postunda səlahiyyətlərini 2020-ci il sentyabrın 30-dək uzadıb. Bu barədə NATO mənzil qərargahının yaydığı bəyanatda bildirilir.

Alyansın mənzil qərgahının bəyanatında deyilir: "Müttəfiqlər baş katibi təbrik edir və NATO-nun 21-ci əsrin təhlükəsizlik çağrışlarına uyğunlaşması üzrə məqsədəyönlü işin davam etdirilməsində onun qabiliyyətinə tam etibar edirlər".

Xatırladaq ki, Yens Stoltenberq 2000-2001-ci və 2005-2013-cü illərdə Norveçin baş naziri vəzifəsini tutub. 2014-cü il oktyabrın 1-dən isə NATO-nun baş katibi vəzifəsinə seçilib. O, bu vəzifədə Anders Foq Rasmusseni əvəz edib.

# SƏUDİYYƏ ƏRƏBİSTANINDA QADINLARIN HAKİM OLMASINA İCAZƏ VERİLDİ

Səudiyyə Ərəbistanında qadınların hakim işləməsinə icazə verilib.

Bu barədə qərar Səudiyyə Ərəbistanı kralının rəhbərliyi ilə keçirilən Məsləhət Şurasında qəbul edilib. Şura bu qərar nəticəsində qadınların hüquq sistemində özlərinə mühüm yer edəcəklərini bildirib.

Xatırladaq ki, Səudiyyə Ərəbistanında qadınlara qarşı tətbiq edilən bir sıra qadağaların aradan qaldırılması prosesinə xeyli vaxtdır başlanılıb.



# ÇİNDƏ İNSANLARI DƏRHAL TANIYAN SÜNİ İNTELLEKT YARADILDI



Çinin süni intellekt sahəsində liderlik edən "Yitu Technology" şirkəti milyonlarla videonəzarət kamerasına qoşularaq insanları dərhal tanıya bilən süni intellekt alqoritmi hazırlayıb. "Dragonfly Eye" adlandırılan sistem milli məlumat bazasında olan 1,8 milyard fotoşəkildən ibarət kolleksiyaya malikdir.

"Dragonfly Eye" ilk iş günündə polis tərəfindən axtarılan insanı izləyərək onun dəqiq yerini hüquq mühafizə orqanlarının əməkdaşlarına göndərib. Daha 567 cinayətkar sistem tərəfindən şəhər metrosunda aşkar edilib.

Şirkətin həmtəsisçisi və icraçı direktoru Çju Lonq deyib: "24 milyon əhalisi olan Şanxay şəhərində bu qədər insanı izləmək mümkün deyil. Hətta çoxlu kameralar olduğu halda, bütün videoçarxlara baxmaq çətindir. Lakin süni intellekt insanları asanlıqla tanıya bilir".

Onun sözlərinə görə, yeni alqoritm iki fərqli təsvirdə əks olunan şəxslərin eyni insan olub-olmadığını müəyyənləşdirməkdə gömrük mütəxəssislərindən daha dəqiqdir. Sistem obyekti milyonlarla insanın arasında hətta 25 və ya 30 il əvvəlki fotoşəkildən istifadə eməklə də aşkarlaya bilər.

## TBİLİSİDƏ 3 MİN NƏFƏRLİK TƏLƏBƏ YATAQXANASININ TİKİNTİSİ PLANLAŞDIRILIR

İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Mağlividəki korpusunun yerləşdiyi ərazinin yaxınlığında 3 min yerlik tələbə yataqxanası tikilə bilər.

Bu barədə jurnalistlərə Gürcüstanın təhsil və elm naziri Mixail Çxenkeli məlumat verib.

Məlumta görə, yeni yataqxananın tikintisini özəl sektor maliyyələşdirəcək.

Hal-hazırda TDU-nin aztəminatlı ailələrdən olan tələbələri üçün Lisi gölü yaxınlığında yerləşən yataqxanalarda yer mövcuddur. 320 yerlik bu tələbə şəhərciyi ilk sakinlərini 2017-ci ilin oktyabrında qəbul edib. Tələbə şəhərciyində idman meydançası, trenajyor, üç yaşayış korpusu, inzibati bina, konfrans zalı, tibb məntəqəsi, kompyuter otağı və yeməkxana istifadəyə verilib. Şəhərciyin infrastrukturu məhdud imkanlı şəxslər üçün uyğunlaşdırılıb.

## YETKİNLİK YAŞINA ÇATMAMIŞLARIN İŞLƏRİNİ XÜSUSİ PROKURORLAR APARACAQLAR



Yetkinlik yaşına çatmamışların hüquq işi üzrə prokurorların, hakimlərin, polislərin və vəkillərin yenidən hazırlanması başa çatmaq üzrədir.

Prokurorluqda bildiriblər ki, layihə çərçivəsində bütün Gürcüstn üzrə 120 sıravi prokuror və 120 menecer yenidən hazırlanıb.

Yeni ildən bütün böyük şəhərlərdə yalnız yetkinlik yaşına çatmamışların işlərinin yerinə yetirilməsi üçün xüsusi prokurorların ayırılması nəzərdə tutulur.

Yetkinlik yaşına çatmamışların hüquq məcəlləsi 2016-cı ilin yanvarından qüvvəyə minib.

Yetkinlik yaşına çatmamışlarla bağlı işlərin istintaqında iştirak edən şəxslərin yenidən hazırlanmasının ikinci mərhələsi gələn ildən başlayacaq.

## 2003-CÜ İLDƏN GÜRCÜSTANDA DOĞULMUŞ 11 623 ADAM ABŞ VƏTƏNDAŞLIĞI ALIB

2003-cü ildən indiyədək Gürcüstanda doğulmuş 11 623 adam təbəəliyi qəbul etmək yolu ilə ABŞ vətəndaşlığı alıb. ABŞ vətəndaşlığı almış Gürcüstan əsillilərin 4 937 nəfəri kişi, 6 683 nəfərisə qadındır. Bu barədə məlumat ABŞ Təhlükəsizlik xidmətinin səhifəsində dərc olunub.

Bu məlumata görə, 2009-cu ildən etibrən amerikan vətəndşlığı alanların sayında artım baş verib.

Əgər 2003-2008-ci illərdə ildə təqribən 500 nəfər vətəndaşlıq almışdırsa, 2009-2016-cı illərdə onların sayı 1 076 nəfərədək artıb.




Statistikada ştatlar üzrə məlumatlar da yer alıb. Birinci yeri tutan Nyu-Yorkda 3 752 adam vətəndaşlıq alıb. 2003-2016-cı illərdə Gürcüstan doğumlu 2 363 şəxsə vətəndaşlıq verən Kaliforniya gəlir.

## 2018-Cİ İLDƏN AVTOMOBİLLƏRƏ ƏMLAK VERGİSİ TƏTBİQ OLUNACAQ

Gürcüstanda avtomobilə görə əmlak vergisinin ödənilməsinə 2018-ci ildən start veriləcək. Bu vergini illik gəliri 40 min laridən çox olan ailələr ödəyəcəklər.

Gürcüstan Maliyyə Nazirliyində bildiriblər: "2017-ci ilin gəlirlərinə müvafiq olaraq əmlak bəyannaməsinin 2018-ci ilin noyabrınadək təqdim olunması nəzərdə tutulur. 40 min laridən çox gəliri olan ailələr avtomobillərə görə məhz 2018-ci ildən əmlak vergisi ödəyəcəklər".

Qeyd edək ki, verginin illik həcmi vergi ili ərzində əldə olunmuş gəlirlərə müvafiq olaraq müəyyənləşdirilir. Belə ki, 40 min laridən 100 min lariyədək gəliri olan ailələr 0,05 faizdən az və avtomobilin dəyərinin 0,2 faizindən çox olmayaraq, gəlirləri 100 min lari və daha artıq olan ailələr isə 0,8 faizdən az və avtomobilin dəyərinin 1 faizindən çox olmayaraq əmlak vergisi ödəməli olacaqlar.

## ELEKTRİK ENERJİSİNİN QİYMƏTİ BAHALANDI

Tbilisinin ardınca Gürcüstan regionlarının əhalisi üçün də elektrik enerjisinin qiymətində artım baş verib. Gürcüstanın energetikanın və su təchizatının tənzimlənməsi üzrə Milli Komissiyası "Enerqo-pro-Gorgia" SC-nin tariflərini müzakirə edərək, 2018-ci il yanvarın 1-dən etibarən həm məişət, həm də kommersiya sektorunda sərf olunan hər 1 kVt.s. enerji üçün qiymətləri 1,28 tetri artırıb.

Gürcüstanın energetikanın və su təchizatının tənzimlənməsi üzrə Milli Komissiyasının qərarına əsasən məişət sektorunda istehlakçı 101 kVt.s. enerjiyə görə hər kVt.s üçün 12,954 tetri ödəyirdisə, yeni ildən 14,23666 tetri ödəməli olacaq. 101 kVt.s.-dan 301 kVt.s.-dək enerji istehlak edənlər hər kVt.s. üçün 16,931 tetri əvəzinə 18,21366 tetri, 301 kVt.s.-dan artıq elektrik enerjsi tükədənlər isə 21,450 tetri əvəzinə hər kVt.s. üçün 22,73266 tetri ödəyəcəklər.

## DİNARIN DÖRDDƏ BİRİ
### (irrasional)



İBRAHİMXƏLİL

**Süsən-Sünbüldə əbəs yerə demirlərmiş: yay oğurluğu qışda deyilər. Yayda süsən-sünbüllülərin başı Suriya sınaqlarına, Qarabağ qəzavü-qədərinə, futbol fürsətlərinə qarışdı, sarımsaq oğurluğu yaddan çıxdı. İndi qışın boşluğunda bəs nədən danışasan?..**

...Mirzə Maşallah tez-tez qonşuya sarımsaq dalınca gəlirdi. Mirzə Hörmət də bir verdi, iki verdi, üç verdi, iyirmi üçüncüdə: "Axı özünüz niyə sarımsaq əkmirsiniz?" – südəmər sualına cavab istədi. Mirzə Maşallah da köhnə-kürüş cavab verdi: "Sarımsaq əkmək bizim ailəyə düşmür" – dedi.

Mahiyyətlər və təzahürlər, təsadüflər və zərurətlər dünyasında nələr olmur? Mən də artıq neçənci dəfə nəsrimizin "ağır artilleriyası" sayılan unudulmaz Süleyman Rəhimovun "Pəri çınqılı" hekayəsini oxuyurdum. Sənin də yadında qalmış olar: hekayədə bir "seyrəksaqqal" Sarımsaq oğlundan da söz açılır.

Hər nə isə...

Sabahlarınız üstünüzə xeyirliyə açılsın! Səhər xəbər çıxdı ki, bəs deməzsənmi, Mirzə Hörmətin sarımsaq sahəsi tamamilə talan edilib. Bütün izlər də gedib Mirzə Maşallahgilə çıxırdı. Açıq-aşkar bilinən ayaq izlərindən dolayı, Süsən-Sünbüldə sarımsağa hamıdan çox aludə olan da, sarımsağın sağlamlıq üçün əhəmiyyətindən saatlarla nitqlər söyləyən də təkcə Mirzə Maşallah idi. Tərəqqi yolunu tutan eli var olsun! Mirzə Maşallahın Tiflisdə də, Bakıda da topdağıtmaz evlərinin olduğunu söyləyirdilər. Onun ortancıl oğlu Kazretidə qızıl zavodunda işləyirdi. Bəzi ağzıgöyçəklər söz gəzdirirdilər ki, bəs deməzsənmi, "keçid dövrü"ndə, əzəllər dovşanı araba ilə tutan (elə bunun da oduna düşən), amma sonralar zəifləyən hökumətin vaxtında zavoddan qızıl oğurlayıbmış. Belə çıxırdı ki, onlara sarımsaq əkmək düşmür, amma haram buyrulan oğurluq düşür!

Süsən-Sünbül susmağı sevir, çünki deyib özünü pis eləmək buralarda dəbdə deyil.

Yenə də təkcə Yetim İbrahim (adaşım və uzaq qohumum) dilləndi. Dedi ki, ay Mirzə Maşallah, indi qəhətlik və aclıq illəri deyil ki, oğurluğa görə sənin əlin kəsilməsin. Solaxay olduğunu da hamımız bilirik, sarımsağa hansı əlinlə toxunmusansa, o əlin kəsilməlidir.

Amma Yetim İbrahim depressiyalı adamdır. Süsən-Sünbül də onun belə "divanə" çıxışlarına alışıb: sözünü ciddiyə almır. Həm də gərək bu halda elin girt yarısının əli kəsilə!..

Yetim İbrahim mənə danışıb ki, hansı zamanlardasa – gərək ki, Yəmən tərəflərdə – dinarın dörddə biri və ondan çox məbləğ oğurlandıqda oğrunun əli kəsilirmiş. Dinar da bəzi ərəb ölkələrində və Xorvatiya, Serbiya, Makedoniya kimi məmləkətlərdə pul vahididir. Yetim İbrahim qədim qızıl dinarın çəkisinə qədər bilir. Bu dəfə də onu sakitcə dinləyirəm. Onda söhbətinin davamı olaraq, Yetim İbrahim mənə "fil xəstəliyi" deyilən bir xəstəlikdən də danışır. Əsasən ağcaqanadlar tərəfindən yayılan bu xəstəlik zamanı insan bədəninin bir hissəsi həddən ziyadə böyüyürmüş. Yetim İbrahim deyir ki, bizim Süsən-Sünbülün iştahı, hərisliyi, nəfsi eynən "fil xəstəliyi" misallı böyüməyə başlayır. Bunu da deyir ki, bu yaxınlarda "Təmiz insanlar cəmiyyəti" yaratmaq istədim, amma qorxdum ki, gələ oğrular girə.

Doğrudur, Yetim İbrahimin o boyda malı-mülkü yoxdur ki, gecəykən oğru apara, amma imanı elə möhkəmdir ki, indiyəcən şeytan qopara bilməyib.

Yaxşı ki, stresi, depressiyası ilə bağlı, Yetim İbrahim son vaxtlar çox oxumur. Xəbəri yoxdur ki (amma bəlkə də var), İbn Salman bircə tablo üçün 450 milyon sayıb: özü də "Dünyanın xilaskarı" adlı tablo üçün. 300 milyona ev alanlar var, 200 milyonu yar yollarına səpələyənlər var... Çoxu da oğurluqda-rüşvətdə adı hallananlardır. Təbii ki, əlləri də yerli-yerində...

**P.S.**

Dünən yuxuda nələr görsəm yaxşıdır? Görürəm ki, Əyriqarın ətəklərində yenicə doğan günəşə baxıram. Elə gözəl mənzərədir ki, bunu ancaq uca Yaradan yarada bilər! Baxmağa o qədər aludə oluram ki, gecdən-gec kiminsə cibimə girdiyini hiss edirəm. Oğru hardan bilsin ki, ucqar şairin cibləri də sökük olur, oralarda pulmu tapılar?

Amma son anda oğrunun üzünü də görürəm: eynən Jessica Maya (Türkiyə istehsalı olan "Yeni gəlin" filmində baş rolda çəkilib) bənzəyir!

**...belə qadının əlinin kəsilməyinə ömürbillah razı olmaram!**

**...sonra öz qələm tutan barmaqlarıma baxıram.**

**...arada-sırada yaman kəsiləsi barmaqlardır!**

# YENƏ DƏ TİTRƏYİR ƏLİMDƏ QƏLƏM...

## (Camal Mustafayev haqqında xatirələrim)



İSAXAN İSAXANLI
isaxanisaxanli@mail.ru

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada!*
*El qədrini canından daha əziz bilənlər,*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər.*
*Səməd Vurğun*

**Camal Mustafayev haqqında xatirə yazmaq! Son dəfə qələmimin belə ağır mövzuda yazdığı vaxtı xatırlamıram. Amma bu ağırlığın içində müqəddəs bir yüngüllük hiss etdiyim üçün qələmimi zorlamağa çox da ehtiyac qalmadı**.

Hələ uşaqlıq illərimdə, o dövrdə şəxsən tanımadığım Camal Mustafayev haqqında ailəmizdə, sonralar isə camaat arasında həmişə xeyirxah fikirlər, qiymətli sözlər eşitmişdim. Açığı Camal müəllimlə ilk tanışlığımı xatırlamıram. Bəlkə ilk dəfə, uşaq vaxtı, 1972-ci ildə – atamın dəfn mərasimində görmüşəm. Bəlkə də daha sonra. Tələbəlik illərimdə onu bir qədər tanısam da, onunla daha çox "Xəzər"də işlədiyimiz vaxtda canlı ünsiyyətdə oldum və Camal Mustafayev dünyasını yenidən kəşf etdim bu illərdə.

Camal müəllim atam Abdulla İsayevlə uşaqlıq dostu olublar, bir sinifdə oxuyublar. Atamın dünyadan vaxtsız köçməsi onu yaxşı tanıyan insanlar kimi Camal müəllimi də sarsıtmışdı. Bir dəfə mənimlə səmimi söhbətdə "Abdulla müəllim əsl müəllim, əsl dost idi. Mən ən səmimi dostlarımdan birini, doğma qardaşımı itirdim" deyə atamı anmışdı. Elə bu səmimiyyətlə də Camal müəllim həmişə mənə (eləcə də biz qardaşların hamısına) adımızla deyil, çox doğmalıqla "qardaşoğlu" deyərək müraciət edirdi.

Qarayazıdan Bakıya qayıdırdıq. Maşında 4 nəfər idik. Camal Mustafayev, Hamlet İsaxanlı, qardaşım Şahin və mən. Arxada oturmuşdular Camal müəllim və Hamlet müəllim. Həyat haqqında bir mühazirə idi bu yolçuluq. Hansı söhbətlərin şahidi olmadıq yolda olduğumuz 8-9 saat ərzində? Fəlsəfə, poeziya, ədəbiyyat, tarix, türkün kimliyi, xalq qəhrəmanları haqqında və daha nələr, nələr... Bircə siyasətdən danışılmadı. Bu da söhbətinə qulaq asdığım bu insanların böyüklüyünün bir ifadəsi idi. Siyasətlə qoy siyasətçilər məşğul olsunlar. Yol boyu hərdən nə isə demək istəyirdim, lakin onlara mane olacağımdan qorxur, vermək istədiyim sualları içimdə boğurdum. Verə bilmədim vermək istədiyim sualları. Amma qazandıqlarım? İnanın səmimiyyətimə ki, o yolçuluqdan (və bu insanlarla birlikdə olduğum digər məclislərdən) qazandıqlarımı bəlkə qalaq-qalaq kitablar oxumaqla da qazanmaq mümkün deyil.

Təbii ki, bir yerdə Camal müəllim varsa, orada söhbət Səməd Vurğunsuz ötüşməz. "Mən tələsmirəm"i oxudu. Nə qədər gözəl, səmimi və minnətdarlıqla səslənirdi böyük şairin şeiri böyük filosofun ifasında. Sonra Səməd Vurğunun xeyirxahlığından ürəkdolusu danışmağa başladı. "Çinarın şikayəti"ni başdan - ayağa oxudu. Özü də necə! Dəfələrlə oxumuşdum bu şeiri. Amma indi şeir mənə tamamilə başqa cür, çox şirin gəldi. Evə çatdıqdan sonra kitabı götürüb "Çinarın şikayəti"ni bir də oxudum. Mənə elə gəldi ki, mən əvvəllər bu şeiri oxumamışam, amma oxumuşdum, özü də bir dəfə yox.

Camal müəllim inanılmaz dərəcədə səmimi və qayda-qanun sevən idi. Bir dəfə səhhəti ilə əlaqədar işə gəlməmişdi. Katibə qız mənə zəng edib "Camal müəllim sizinlə danışmaq istəyir" dedi. Hal-əhval tutduqdan sonra "İsaxan müəllim, bir az soyuq dəyib, bu gün işə gələ bilmədim, üzrlü hesab edin" – deyə, bir az günahkarmış kimi dilləndi. Mən, "Camal müəllim, narahat olmayın, heç zəng eləməyə də ehtiyac yox idi, Siz işə Sizə uyğun qrafiklə gələ bilərsiniz" – deyə bildirdim. "Yox-yox, İsaxan müəllim, elə şey olmaz" – deyə, bir qədər narazı dilləndi.

Sonradan öz-özümə fikirləşdim və qayda - qanunlara hədsiz dərəcədə hörmətlə yanaşan Camal müəllimə olan hörmət və ehtiramımı bu şəkildə bildirməklə bir balaca "siyasi səhv" buraxdığımı anladım.

Camal müəllim əslində bir qayğıkeşlik, xeyirxahlıq rəmzi idi. Özünün qızıl kimi vaxtını və enerjisini nəinki cavan vaxtı, hətta ixtiyar vaxtında da balacadan tutmuş böyüyə qədər istənilən bir adamın yolunda xərcləməkdən qəti usanmaz, istəsən də, istəməsən də içindən gələn qayğıkeşliyini göstərirdi Camal müəllim! Məncə onu tanıyan elə bir adam tapmaq çətindir ki, Camal müəllimin ona bir yaxşılığı keçməmiş olsun, ona bir qayğıkeşlik göstərməmiş olsun. Mən də bu insanlardan biriyəm.

2001-ci ilin yazı idi. Mən o vaxt Azərbaycan Dövlət Pedaqoji Unuversitetinin dissertantı idim. Müdafiəyə hazırlaşırdım. Camal müəllimlə rastlaşdıq. Məndən müdafiəmin nə yerdə olduğunu soruşdu və sonra da "Hüseyn müəllim mənim yaxın dostumdur, səni tapşıraram" dedi (akademik Hüseyn Əhmədov mənim elmi rəhbərim idi). Mən buna ehtiyac olmadığını desəm də, mümkün olmadı. "Xeyli vaxtdır Hüseyn müəllimlə də görüşmürük, elə yaxşı oldu, həm ziyarət, həm ticarət" deyərək, qoluma girdi. Birlikdə Azərbaycan Dövlət Pedaqoji Unuversitetinə getdik. Hüseyn müəllimin iclasda olduğunu söylədilər. Camal müəllim kafedrada işləyən qızlardan birinə "qızım, gedin Hüseyn müəllimə deyin ki, Camal Müstafayev gəlib, sizinlə görüşmək istəyir" dedi. Mən bir az narahat olmağa başladım. Doğrusu, bu tapşırma məsələsi onsuz da ürəyimdən deyildi, üstəlik indi də Hüseyn müəllimi iclasdan çağırtdırması məni lap "qorxutmuşdu", kişi iclasdan yarımçıq çıxsa, bunun heyfini məndən çıxa bilər deyə həyəcan keçirirdim. 2-3 dəqiqə keçmədi, Hüseyn müəllim gəldi, özü də nə gəldi! "Ay Camal müəllim, ay Camal müəllim, nə yaxşı gəldin, sabahdan bu iclasdan necə çıxmağın yolunu fikirləşirdim tapa bilmirdim, sən tapdın" deyə, kefi kök halda hal-əhval tutdular. Dostların belə səmimi, mehriban görüşü mənim də kefimi qaldırdı.

Camal müəllim məni Hüseyn müəllimlə "tanış etdi": "Qardaşoğlumdur, deyəsən, sənin tələbəndir, müdafiəyə hazırlaşır. Gözün üstündə olsun". Mənə qarşı diqqət və xoş münasibətindən heç bir şikayətim olmadığı, tanıdığım xeyirxah insanlardan biri olan, yaxşılıq eləməkdən zövq alan Hüseyn Əhmədovdan bundan sonra daha da doğma münasibət gördüm.

Camal müəllim qeyri-adi dərəcədə diqqətcil bir insan idi.

1997-ci il oktyabrın ortaları idi. Ayağımdan əməliyyat olunmuşdum. Travmotologiya və ortopediya institutunda müalicə olunurdum. Bir gün qapı açıldı, Camal müəllim içəri daxil oldu, Camal Mustafayev! Gözlərimə inanmadım. Açığını deyim ki, bir tərəfdən "ona əziyyət verdiyim üçün" özümü danlayırdımsa, digər tərəfdən də belə bir insanın "diqqətini qazanmanın" sevincini yaşayırdım. İlahi, sən bu böyük insanda böyük diqqətə bir bax! Hal-əhval tutduqdan sonra: "Qardaşoğlu, yatdın, bəsdir. Sənin çox yatmağa haqqın yoxdur. Ayağa qalx, "Xəzər" səni gözləyir" dedi.



Hörmətli İsaxan müəllim!
Sizə bir zəhmət vermək istəyirəm. Aşağıda göstərilən kitabları mümkündürsə M. F. Axundov adına kitabxanadan gətirdib, mənə çatdırın:
1. Арриан Флавий, „Поход Александра",
2 Квинт Курций Руф, „История Александра Македонского".
Bunları mən vaxtilə oxumuşam; indi araşdırmamda istifadə etmək üçün yenə baxmag lazımdır.
Səmimi salamlar, xoş arzularla
Camal Mustafayev
9 iyul 2012-ci il.

Təxminən 2010-cu ildən Camal müəllimin özünün səhhətində problemlər müşahidə edilməyə başladı və artıq, demək olar ki, işə gəlmir, evdə müalicə olunurdu, mən də imkan olduqca, onu ziyarətə gedirdim. 2012-ci ilin iyul ayının 9-da axşam saatlarında mənə zəng etmişdi. "Qardaşoğlu, bir nəfər göndər sənə bir məktubum var" dedi. Məktubu aldım. Məndən 2 kitab istəyirdi. Bir neçə gün ərzində onun xahişini yerinə yetirib kitabları göndərdim. Axşam zəng edib minnətdarlığını bildirdi. İndi həmin balaca məktubu Camal müəllimdən əbədi xatirə kimi saxlayıram.

2014-cü il fevralında qardaşım Hamletlə birlikdə növbəti dəfə ziyarətinə getmişdik. Artıq xəstəlik onu üstələməyə başlamışdı, yataqdan qalxa bilmirdi. Buna baxmayaraq nitqində heç bir problem yox idi, hər şey yerli-yerində - məntiq, ardıcıllıq, şirinlik. Fenomenal yaddaşı yenə də heyrətləndirirdi. Xeyli söhbət etdik. Həmişə olduğu kimi, fəlsəfə, özünüdərk məsələləri, milli kimlik, poeziya, Nizami, Nəsimi, Səməd Vurğun və s. mövzular iki böyük şəxsiyyətin fikir dünyasından süzülür, dupduru bulaq suyu kimi içimə axırdı. Birdən Camal müəllimin həyat yoldaşı Nanə xanım (İndi haqq dünyasındadır, məkanı cənnət olsun) "Oğul, İsaxan, sənin neçə yaşın var?" – deyə soruşdu. Mən cavab verməyə imkan tapmamış Camal müəllim dilləndi: "62-ci ildəndir, 52 yaşı var". Hamlet müəllimlə mən heyrətdən bir-birimizin üzümüzə baxdıq. Bu qədər xəstəlik, ağrı-acı içində, ömrünün bu çağında, vacıblik dərəcəsi bəlkə də sıfır olan, bu məlumatı yadda saxlaması heyrətləndirici, digər tərəfdən də mənim adıma qürurverici idi.

Görəsən, biz Camal müəllimin bizə qarşı olan bu diqqətinin heç olmasa kiçicik bir faizini onun özünə qarşı göstərə bilmişikmi? Əsla! Nə mən, nə heç kim.

Həmin görüşümüzdə o, vəsiyyət etməyi də unutmadı: "Məni kəndimizdə dəfn edin. Mən o torpağa çox şey borcluyam". Əslində hər kəs vətəninə, torpağına, xalqına, elinə-obasına borcludur. Amma, məncə, Camal Mustafayev o şəxsiyyətlərdəndir ki, vətəninə, torpağına, xalqına, elinə-obasına borcunu artıqlaması ilə ödəmiş, bəlkə də onun elədikləri üçün vətən, torpaq, xalq, el-oba özü ona minnətdar olmalıdır.

Camal müəllim elə bil ki, təmizlik rəmzi olaraq, yaxşılıq eləməyə, xeyirxahlıq eləməyə yaradılmışdı. Mən bu keyfiyyətlərdən bu qədər zövq alan, bunları sanki özünün həyat kredosuna çevirən ikinci bir adam tanımıram.

Noyabrın 29-da, Hamletlə birlikdə, yenə ziyarətinə getmişdik. İçəri girəndə qızı Leyla xanım "artıq 5 gündür ki, heç nə yemir, içmir, özündə deyil, heç kimi tanımır" – deyə bizi bir qədər "hazırladı". Otağa daxil olduq, doğrudan da Leyla xanımım dediklərinin təsdiqini gördük. Sakitcə, gözlər qapalı halda uzanmışdı, çox ağır nəfəs alırdı. Bütün bunlar "o günün" yaxınlığının xəbərçisiydi. Kövrəldim, saymazyana Hamlet müəllimə tərəf nəzər saldım. Bulut kimi dolmuşdu, bircə himə bənddi. O anlarda ürəyimdən nələr keçdi, bilmirəm, özümdən asılı olmayaraq, çarpayıya tərəf əyilərək "Camal müəllim, Hamlet gəlib" dedim. Sanki möcüzə baş verdi, ehmalca gözlərini açdı və sakitcə "Hamlet müəllim, xoş gəlibsən" dedi. İçimdə inanılmaz bir rahatlıq keçirdim. Bu zaman Leyla xanım da heyrətini saxlaya bilmədi: "Bir neçə gündür gəlibgedən heç kimi tanımırdı, Sizi tanıdı, qəribədir". Bu arada Camal müəllim yenidən dilləndi: "Hamlet müəllimi yormayın". İlahi! Bu vəziyyətdə, nəfəs almağa çətinlik çəkdiyi bu dəqiqələrdə belə kiminsə qayğısını çəkmək! Bunu yalnız Camal müəllim edə bilərdi, bu hislərə yalnız Camal Mustafayev qəlbi sahib ola bilərdi. Bu, Camal müəllimin dilindən eşitdiyim son kəlimə oldu. Heyrət və kədər içində bir-birimizə baxdıq, xeyli müddət sakitcə oturduq. Camal müəllim yuxuya getmişdi.

Qapıdan çıxarkən özümdən asılı olmayaraq bir də geri döndüm, bir də baxdım "allaha hamıdan yaxın", "İnsan zəkasının parlaq səhərini" özündə əks etdirən "müdriklik məbədi" o gözlərə. Bir neçə gündən sonra əbədi yumulacaqdı o gözlər.

O pir, ocaq gözlər əbədilik yumulsa da, onlardan saçan işıq, nur heç vaxt sönməyəcək. İndi göylərdə daha bir əbədi ulduz yanacaq – Camal Mustafayev ulduzu!

Camal müəllimi, özünün vəsiyyətinə uyğun olaraq, doğulub boya-başa çatdığı doğma kəndimizdə - Gürcüstanın Qarayazı mahalının Kosalı kəndində dəfn etdik. "Hər damlaya dərya qiymət" (İfadə Hamlet İsaxanlının "Ziyarət" poemasından götürülmüşdür) verən sadə kənd adamlarının öz aliminə, bir təmizlik, alicənablıq, xeyirxahlıq simvoluna çevrilmiş Camal Mustafayevə olan hörmətini, məhəbbətini, ehtiramını bir daha gördüm o gün. Böyük alim, Böyük insan Camal Mustafayev bir vaxtlar onu şöhrətləndirib dünyaya tanıdan bu torpağı indi özünün son vəsiyyətilə - bu torpaqda uyuyaraq şöhrətləndirmiş oldu.

**Dəfn mərasimində rayonun tanınmış müəllimlərindən biri – Azərbaycan dili və ədəbiyyatı müəllimi Hidayət Yusubovun söhbətimiz zamanı mənə dediyi sözlər həmişəlik həkk olundu qulaqlarıma: "Nə böyük, nə müqəddəs bir vəsiyyət. Zaman gələcək, Camal müəllimin məzarı bütün Qarayazı mahalı üçün bir and yerinə çevriləcək".**

## RAFİQ HÜMMƏTİN ŞEİRLƏR KİTABININ TƏQDİMATI KEÇİRİLDİ



Dekabrın 23-də M. F. Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyinin toplantı zalında Azərbaycan Yazıçılar Birliyinin Gürcüstan bölməsinin və "Varlıq" Mədəniyyət Mərkəzinin rəhbəri tanınmış şair Rafiq Hümmətin "Rüzgara oxunan söz" adlı şeirlər kitabının təqdimat mərasimi keçirildi.

Mərasimə toplaşanları salamlayan M. F. Axundov adına muzeyin direktoru Leyla Əliyeva Rafiq Hümmət barədə qısa məlumat verdi. Mərasimdə çıxış edən R. Hümmət yradıcılığını və şəxsiyyətini dəyərləndirən mərasim iştirakçılarına minnətdarlığını ifadə etdi.

Sonra Azərbaycan radiosunun Rafiq Hümmətin həyat və yaradıcılığına həsr etdiyi verlişin səsyazısı mərasimə toplaşanların diqqətinə çatdırıldı.

Daha sonra Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşı Fəxri Hacılar, "Qarapapaqlar" dərgisinin redktoru Akif Xansultanlı, şairə Fatma Aslan, iş adamı, R. Hümmətin tələbə yoldaşı Rüstəm Məmmədov, yazıçı-publisist Mirzə Məmmədoğlu, şairə Şövkət Dağlarqızı, tərcüməçi Zezva Medulaşvili, "Yeni Yol" qəzetinin redaktoru A. Muxtroğlu, publisist-tərcüməçi Cambul Məmmədli, ziyalılardan Zahid Nəsibov, Bəhram İsayev, Cəmilə Hacıyeva, Qaratel Allahverdiyeva, Leyla Məmmədova, Fatma Hümmətova, Zabit Sadıqov, şair Coşqun Cəfər, aktyor Binəli İslamoğlu, yazıçı Kamuran, gənc alim Aygül İsayeva, gənclərdən Xalidə Qəribova, Əmrah Məmmədov və Elməddin Məmmədov çıxış edərək Rafiq Hümmətin şeirlərinin bədii məziyyətindən, onun yaradıcılığının gənclərə müsbət təsirindən bəhs etdilər.

Qeyd edək ki, Təbrizdən təşrif buyurmuş Əmir İspərxanlının ifasında səslənən aşıq havası mərasimə xüsusi gözəllik bəxş etdi.

## MƏKTƏBLİLƏRİN HEKAYƏ YARIŞMASI BAŞA ÇATDI

Qardabani munispalitetinin Kosalı ictimai məktəbininin şagirdləri arasında hekayə müsabiqəsi keçirilib. Məktəb şagird özünüidrətmə təşkilatının təşəbbüsü ilə keçirilən müsabiqə bütün noyabr ayı ərzində davam edib.

Qaliblərin elan olunması isə dekabrın 12-də baş tutub. Müəllimlərdən və məktəb şagird özünüidarəetmə orqanının ədəbiyyat klubunun üzvlərindən təşkil olunmuş münsiflər heyəti müsabiqəyə təqdim olunmuş 20 hekayəni oxuyaraq, yekun qərarını bildirib. Müsabiqəyə təqdim olunmuş hekayələrdən biri plagiat olduğundan münsiflər heyətinin üzvləri yekdilliklə onu müsabiqəyə buraxmayıblar. Qalan hekayələr isə onluq bal sistemi ilə dəyərləndiriləndirilərək, müsabiqənin qalibləri müəyyənləşdirilib.

Münsiflərin qərarı ilə VII sinif şagirdi Elmira Piriyevanın "Qaranquş və qarışqa" hekayəsi müsabiqənin birincisi seçilib. XI sinif şagirdi Nuranə Məmmədovanın yazdığı "Ananın gücü" hekayəsi isə ikinci yeri tutub. Yarışmanın üçüncüsü isə "Bilirdim ki, bacaracaqsan" hekyəsinin müəllifi VII sinif şagirdi Dilək Əliyeva olub. Münsiflər "Tülkü balaları" hekayəsinə görə həvəsləndirici mükafatı VII sinif şagirdi Elvin Mosuyevə verməyi qərara alıblar.



Sonda müsabiqənin qaliblərinin mükafatlandırılması baş tutub. Müsabiqədə qalib gələn şagirdlərə müvafiq diplomlar və hədiyyələr təqdim olunub.

Qeyd edək ki, müsabiqənin keçirilməsində məktəb rəhbərliyi, müəllimlər şagirdlərə əllərindən gələn köməyi əsirgəməyiblər.

## KOSALI MƏKTƏBLİLƏRİ BİLİK YARIŞMASININ QALİBİ OLDULAR



Dekabrın 16-da Marneuli şəhərindəki Tea House-da Dmanisi, Bolnisi, Qardabani və Marneuli gənclərinin iştirakı ilə iki turdan ibarət intellektual yarış keçirilib. Yarış iki auditoriyada 10 komandanın iştirakı ilə baş tutub. Yarışda 40 nəfər gənc iştirak edib. Final görüşünə Marneuli və Qardabanidən cəmi 3 komanda vəsiqə alıb.

İntellektual yarışmanın final qarşılaşması dekabrın 27-də baş tutub. Finalda Marneuli şəhərinin, Marneuli rayonunun Kirəc Muğanlı kəndinin və Qardabani rayonunun Kosalı ictimai məktəbinin komandaları qarşılaşıblar. Dörd sahə üzrə keçirilən yarışmada Qardabani rayonunun Kosalı komandası bütün rəqiblərini geridə qoyaraq komanda hesabında birinci olmağı bacarıb. Belə ki, Kosalı ictimai məktəbinin şagirdlərindən təşkil olunmuş "Kosalı" komandasının üzvləri Mirzə Allahverdiyev, Nərgiz Bağırova, Amin Əhmədov, Qüdrət Piriyeva, Bəxtiyar Əhmədov, Fidan Əliyeva, Vüsal Əhmədov və Şahnigar Mosuyeva qələbə sevinci yaşayıblar.

Qaliblərə yarışmanın baş mükafatı və hədiyyələr təqdim olunub.

Xatırladaq ki, intellektual yarışma Tea House-nin təşkilatçılığı, SOCAR-ın maliyyə dəstəyi ilə keçirilib.

## QEYRİ-MÜƏYYƏNLİK FONUNDA BAŞ VERƏNLƏR



Şöhrət ADIGÖZƏLOV

**Ədəbiyyat obrazlı düşüncə sənəti olaraq hər bir xalqın milli dəyəri və mənəviyyatıdır. Gənc nasir Kamuranın "Bir dişlək alma" adlı romanı mühitimizin ədəbi prosesi fonunda qələmə alınan ədəbi əsərlər arasında diqqəti cəlb edən bir romandır. Bu romanı səciyyəvi qılan bir çox cəhət mövcuddur. Romanın əsas xususiyyətlərindən biri kimi sadə dillə yazılmasını misal göstərmək olar, bununla birlikdə qəhramanın başına gələnləri öz diliylə öznəməxsus bir şəkildə danışması romana xususi bir rəng qatır.**

Romanda hadisələr ardıcıl olaraq biri-birinə təkan verəcək qüvvə ilə cərəyan edir. Qəhramanın daxili aləmi və xarici aləmdə baş verən dəyişikliklər onun düşüncə və ideyalarında öz əksini tapır. Əsərdə müvafiq başlıqlar, fəlsəfi sözlər, düşüncələr, fikirlər özünü daxil olduğu hissədəki hadislərdən çıxarılmış nəticələr kimi tamamlayır. Romanda qəhrəman ətrafında baş verənlərdən mənfi meyilliliklə təsirlənir və həyata qarşı düşüncələri pessimist bir mövqeyə gəlir. O, hər şeyə nifrətlə yanaşır, get-gedə ətrafından qopur, ancaq sonra baş verənlər onun düşüncə və mövqeyinə tamamilə əks təsir göstərir və qəhrəman ilk dəfə aşiq olmaq hissilə qarşı-qarşıya qalır. Bu hiss onun daxili aləmini köklü dəyişikliyə məruz qoyur, artıq bu dəyişmə ilə birlikdə mövqeyi və düşüncələri də dəyişir, daha həyata qarşı nifrətlə yanaşmamağa başlayır. Mövzunun başlıq hissəsində də deyildiyi kimi – "sevərkən hər şey gözəl, nifrət edərkən isə hər şey çirkindir". Ancaq ilk eşqi müvəqqəti olaraq uğursuzluqla nəticələnir.

Əsərdə baş qəhərəmanın atası öz mənəvi problemləri ilə yaşayır. O, çox həssasdır. Bəzən çox qərəzlidir, ancaq bütün bunlara baxmayaraq, öz oğlu üçün daim narahat və onun hər dəqiqə qayğısına qalan bir obraz kimi təsvir olunmuşdur.

Hadisələrin sonrakı inkişafı qəhrəmanın öz vətəninin azadlığı uğrunda necə mübarizə aparması haqqındadır. O, artıq azadlıq naminə hər cür təhlükəni gözə alaraq hərəkət eləməyə meyillidir. Lakin bu azadlıq qan bahasına nail olunur, qəhrəman bəlkə də ömrünün axrına qədər unuda bilməyəcəyi dəhşətli hadisələrə şahid olur, buna baxmayaraq azadlıq əldə olunmuşdur. Hadisələrin bundan sonrakı inkişafında qəhrəman azadlığını yeni bərpa etmiş ölkəsindəki yeni və dəyişik şəkildə formalaşan mühitdən danışır, qəhrəmanın artıq fərqli mövqeyi, daxili aləmi, düşüncələri xarici aləmlə təzad yaradır. Qəhrəman bəzi çətinliklərlə üzləşir, ancaq özünə inanaraq və çətinliklərə qarşı səbrlə mübarizə apararaq bütün problemləri aradan qaldırmağa nail olur. Artıq o, özünü xüsusi bir mövqedə qərarlaşdırır, burada yenidən qəhrəmanın necə dəyişdiyinə şahid oluruq. Qəhrəman artıq öz idealındakı "mən"ə çevrilir. Lakin sonraki hadisələr hər şeyi köklü olaraq dəyişir. Fəlakətlər qaçılmazdır. Qəhrəmanın atası vəfat edir. Bu hadisə qəhraman üçün qəbul edilməzdir, bu, onun həyata olan bağlarını tamamilə məhv edir. Hadisələrin sonrakı inkişafında qəhrəman həyata küskün bir şəkildə yaşayır, mənəvi sıxıntılarla narkotik və içki qəbul etməklə gününü keçirir. O, artıq nə etdiyini bilmir, nə edəcəyini də düşünmədən edir.

Romanı maraqlı hala gətirən ən mühüm hadisələr axırlara doğru cərəyan edir. Əsərin qəhrəmanı Vaxtanq özünü yeni bir yerdə, əvvələr universitetdə tanış olduğu insanlar arasında tapır. Bu insanları tanımağa çalışır. Orada tanış olduğu insanların keçmişi içaçıcı deyil, hər biri fəlakətə düçar olub, ancaq onları fərqli qılan cəhət onların öz keçmişindəki bu psixoloji situasiyadan qurtulmuş olmalarıdır. Onlar dövlət adamıdırlar və görüşləri Vaxtanqın düşüncələri ilə ziddiyət təşkil edir. Vaxtanq siyasət oyununu "qoyun və çoban" arasındaki münasibətə oxşadır. Onlar Vaxtanqı öz aralarına qatmağa çalışırlar. Lakin qəhrəmanın aqibəti onun öz əllərindədir. O, öz duyğularının ardınca gedir və oradan qaçmağa müvəffəq olur.

**"Mən heç kiməm" – bu başlıq altında baş verənlər artıq qəhrəmanın öz həyatını, elədiklərini sorğulamağa başladığını göstərir. O keçmişini sorğulayır, özünü anlamağa çalışır. Əlbəttə, yenə çox şey qeyri-müəyyən olaraq qalmaqdadır, eynən qəhrəmanın aqibəti kimi, onun həbsxanadan qaçması ilə roman sona yetir. Artıq bundan sonra nələr baş verəcəyi qeyri-müəyyəndir. Romanın adı da bu qeyri-müəyyənliyə uyğundur – "Bir dişlək alma". Müəllif demək istəyir ki, həyatda bir çox şey sirr olaraq qalsa da insan hər şeyi sorğulamalıdır ki, həyatdan bir şey anlasın, lakin həyatda çox şey yenə də qeyri-müəyyən olaraq qalmağa davam edəcəkdir.**

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

# Yeni YOL

31 dekabr 2017-ci il
№021 (59)

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## BAŞQIRD LİDERİ ANA DİLİ İLƏ BAĞLI FİKRİNİ BİLDİRİB



Dil və milli özünüdərk ən çətin məsələlərdən biridir.

Bunu "RİA Novosti" agentliyinə müsahibəsində Başqırdıstan rəhbəri Rüstəm Həmidov söyləyib.

"Başqırdıstanda dillə bağlı etiraz aksiyaları dilin öyrənilməsinə aid deyil. Bu, sadəcə siyasətdir. Dil, milli özünüdərk ən çətin məsələlərdən biridir. Bunu siyasiləşdirmək və onu siyasiləşdirənlərin arxasınca getməyə ehtiyac yoxdur. Cəmiyyəti dil məsələsinə görə parçalamaqla gələcəyi qurmaq olmaz. Bu, çox təhlükəlidir", – deyə o bildirib.

Qeyd edək ki, bu vaxta qədər Başqırdıstan dövlət dili kimi iki dildən – başqırd və rus dillərindən istifadə edib. Bir müddət əvvəl Moskvanın başqırd dilinin icbari tədrisini ləğv etməsi ölkədə böyük etiraz aksiyalarına yol açıb.

## YENİ İLİN ƏN MARAQLI KEÇDİYİ ÖLKƏ VƏ ŞƏHƏRLƏR



Yeni ilə sayılı günlər qalıb. "Yeni il xarici ölkələrdə daha gözəl qeyd olunur", - deyə düşünürsüzsə, Yeni ili keçirə biləcəyiniz ən gözəl şəhərləri təqdim edirik

Las Veqasda məşhur otellər fərqli yeni il partiləri təşkil edir. Göz qamaşdırıcı fişəng partlayışları nümayiş etdirilir.

Nyu Yorkun yeni ildə ən sevilən yeri "Times" meydanıdır. Yeni ildə məşhur ifaçılar səhnəyə çıxırlar, fişənglər atılır, insanlar əylənirlər. "Bronx" heyvanlar bağında təşkil edilən şənlikdə işıqlandırılan dəvə, qaplan, timsah heykəlləri arasında bayram mahnıları ifa olunur.

Parisdə yeni il günü "Champs Elysees" bulvarı və Eyfel qülləsi ətrafındakı meydanlarda tamamilə tıxac yaşanır. "Champs Elysees"lə şəhərin ən önəmli tarixi əsərləri işıqlandırılaraq bəzədilir. Saat 24:00-da Trocadero meydanındakı "Chaillot" sarayının arxasından və Eyfel qülləsindən möhtəşəm fişəng nümayişi başlanır. Saatlar 23:00-ı göstərən kimi Rusiyadakı bütün kənd, qəsəbələr boşalır. Göy üzündə milyonlarla fişənglər partladılır. Sonra insanlar şampan şüşələri ilə küçələrə çıxır. Daha çox "Qızıl meydan"da görüşüb əylənirlər.

Yeni il üçün Praqa küçələri bəzədilir. İnsanlar bir araya gəlib"Charles" körpüsü üzərində havaya fişənglər atırlar.

Rio De Janeyro sakinləri yeni il gecəsi günün ilk işıqlarına kimi şənlənib, rəqs edərlər. Lüks sahil otellərində yeni il süfrəiləri təşkil edilir. İnsanlar ağ paltarlar geyinərək əllərində daşıdıqları şamları inandıqları dəniz ilahəsi Lemanjaya təqdim edərlər.

Sidneydə yeni il həftəsi ofislər bağlanır, fabriklər işləmir, çox adam tətilə gedir. Addımbaşı şaxta babalar olur. Sidneydə yeni il gecəsi dünyanın ən böyük fişəng nümayişi yaşanır. Hər il yeni mövzu seçilir. Mövzuya uyğun simvol "Harbour" körpüsünə asılır.

Amsterdamda şəhərin ən məşhur meydanı olan "Dam"da yeni il şənliyi 24 saat davam edər. Fişənglər, konsertlərlə yeni il çox əyləncəli keçər.

İspaniyada yeni ilin qeyd olunması ailə və dostların bir araya gələrək böyük yemək süfrəsiylə başlayar. Gecə yarısı ispanlar ağızlarına bir gilə üzüm atırlar. Buna da "yaxşı şans üzümü" deyilir. İnsanlar Las Ramblas küçəsində, ya da Qotik meydanında toplaşır.

Berlin hər yeni ildə müxtəlif işıqlarla alışıb yanır. Gecə yarısı Brandenburg qapısının önündə adamlar toplaşar. Dünya mətbəxinin fərqli məhsulları satılar. Mədəniyyət şöləni yaşanır.

Londonda on minlərlə insan Trafalqar meydanına gəlir. Metro erkən bağlanır, yollar tıxac olur. "Covent Fgardein" bağının içindəki açıq sahələr, əyləncə meydanları insanlarla dolur.

## YAPONLAR IDMANÇI ROBOT YARATDILAR

Yapon alimləri idman hərəkətlərini yerinə yetirə bilən robot yaradıblar. İnanılmaz olsa da, bu robotun idman hərəkətlərini yerinə yetirərkən insan kimi tərlədiyi də gələn məlumatlar arasındadır.

Robotun Yaponiyanın "Science Robotics" şirkəti tərəfindən yaradıldığı bildirilir.

Məlumata görə, robot insanların məşğul ola bildiyi bütün idman növləri ilə məşğul ola bilər. Onu indiyədək yaradılan digər robotlardan ayıran əsas xüsusiyyət isə anatomiyasıdır.

## MƏKTƏB DİREKTORU OLMAQ İSTƏYƏNLƏR ÜÇÜN GÜRCÜ DİLİNİ BİLMƏK TƏLƏBİ GÜNDƏMDƏDİR



Gürcüstan Elm və Təhsil nazirinin müavini Lia Qiqaurinin açıqlamasına görə, 2018-ci ildə direktorların seçim müsabiqəsi hal-hazırda direktorları direktor seçmə qaydasına uyğun olaraq seçilməmiş və nazirin əmri ilə təyin edilməmiş məktəblər üçün elan ediləcək.

Etnik azlıqların məskunlaşdığı bölgələrin məktəbləri üçün ərizə yazanlar üçün də gürcü dilinin bilinməsi mütləq şərt olacaq.

Nazir müavininin məlumatına görə, Kvemo Kartli bölgəsində müxtəlif səbəblərdən 9 məktəb direktorsuz qalıb, bu məktəblər üçün direktorun seçilməsi ilk məsələ olacaq.

O, 2018-ci ildə həm direktorların sertifikat müsabiqəsinin, həm də direktoru qanunvericiliyə uyğun olaraq təyin edilməmiş məktəblər üçün direktor seçim müsabiqəsinin keçiriləcəyini bildirib.

## YENİ DOĞULMUŞ KÖRPƏ APPENDİSİTDƏN ƏMƏLİYYAT OLUNDU



Azərbaycanda yeni doğulmuş körpə appendisit diaqnozu ilə əməliyyat olunub.

Bu barədə tanınmış cərrah-uroloq Fuad Hüseynov sosial şəbəkədə yazıb. O, qeyd edib ki, yeni doğulmuş körpədə apendisitin olması tibdə çox nadir rast gəlinən haldır: "Çox nadir olsa da, yeni doğulmuş körpədə də appendisit görülə bilir ki, bu hadisə də bizim balaca qəhrəmanımızın başına gəldi. Uşaqda ümumi narahatlıq, infeksiya göstəriciləri artdığı üçün aparılan müayinələr nəticəsində appendisit diaqnozu təsdiqləndi və körpə cərrahi əməliyyata alındı. Əməliyyatdan 2 gün sonra isə tam sağlam şəkildə evə yola salınıb".

Həkim qeyd edib ki, ümumiyyətlə, yenidoğulmuşlarda appendisit diaqnozunu təsdiqləmək çətindir: "Əksərən körpələr başqa diaqnozla əməliyyata alınır, ya da 95 faiz hallarda gecikdirilir, appendiks partlamış olur. 50 faiz hallarda isə appendisit kimi bəsit sayılan problem körpələrin ölümünə səbəb olur".

## BAŞSAĞLIĞI

**Qardabani rayonunun Kosalı və Nəzərli ictimai məktəblərinin pedaqoji kollektivlərinin üzvləri iş yoldaşları Roza Mustafayevaya əmisi görkəmli alim, fəlsəfə elmlər doktoru, professor**

CAMAL
Vəli oğlu Mustafayevin

**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**

**Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının kollektivi və "Yeni Yol" qəzetinin əməkdaşları Azərbaycanın əməkdar elm xadimi, professor**

CAMAL
Vəli oğlu Mustafayevin

**vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verirlər.**
**Allah rəhmət eləsin!**

**Qardabani rayonu Kosalı ictimai məktəbinin pedaqoji kollektivi Məmməd, Şövkət və İşvə Xiyalovlara əzizləri kimya elmlər namizədi**

MAŞALLAH
Səməd oğlu Xiyalovun

**vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.**
**Allah rəhmət eləsin!**

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

*Redaktor*:
Afiq Muxtaroğlu
*Yayım Direktoru*:
Hacı Bəkiroğlu

*ÜNVAN:* Qardabani şəh. Kolxoz küç, 4
*TEL:* (+995) 595 92 25 70
599 54 12 92
*EMAİL:* yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.